# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

## AİLƏ, QADIN VƏ UŞAQ MƏSƏLƏLƏRİ KOMİTƏSİ

AZ1152, Bakı, Parlament prospekti, 1. www.millimajlis.gov.az

№ 1-6/07/9/2-332/2023 08 dekabr 2023-cü il.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru xanımı Ceyran Mahmudovaya**

**Hörmətli Ceyran xanım,**

Sizi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yaradılmasının 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Bu əlamətdar hadisə ölkənin elmi – mədəni ictimaiyyəti tərəfindən geniş şəkildə qeyd olunur.

Uzun və şərəfli tarixə malik olan bu təhsil müəssisəsi təkcə Azərbaycan üçün deyil, Özbəkistan, Türkmənistan, Dağıstan, Krım və digər regionlar üçün də aktyor və rejissor kadrları hazırlayırdı. Ölkəmizdə təhsilin inkişafının əsas prinsiplərini müəyyən etmiş Ümummilli Liderimiz Heydər Əliyev digər ali təhsil ocaqları kimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə böyük qayğı və diqqətlə yanaşmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasi xəttin prioritet istiqamətlərindən birini təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması təşkil edir. Bu tələblərə cavab vermək üçün bütün potensialını səfərbərliyə alan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kollektivi Sizin rəhbərliyiniz altında böyük uğurlar əldə etməkdədir.

Qürur hissi ilə qeyd edə bilərik ki, bu ocaq Azərbaycan mədəniyyətini, milli-mənəvi dəyərlərini bütün dünyada tanıdan sənətkarlar ordusu yetişdirmişdir. Respublikamızın mədəniyyət və incəsənət sahəsində yüksək ixtisaslı kadrlarla təmin edilməsində bu Universitet müstəsna rol oynayır. Bu müəssisənin məzunları ölkənin mədəni həyatının ayrı- ayrı istiqamətlərində uğurla fəaliyyət göstərir, xalqımıza şərəflə xidmət edirlər.

Hazırda bu uğurların davamlı olmasında şəxsən Sizin çox böyük xidmətləriniz vardır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru kimi bu təhsil ocağının gündən- günə daha da inkişaf etməsi üçün səylərinizi əsirgəmirsiniz.

**Hörmətli Ceyran xanım,**

Sizi və Universitetin bütün kollektivini əlamətdar yubiley münasibəti ilə səmimi qəlbdən təbrik edir, uzun ömür, can sağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

H. Hüseynova

**Hicran Hüseynova**

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXSİ
Daxilolma № 11-1635
1 vərəq
«20» dekabr 2023 il